TARİX VƏ SİYASİ ELMLƏR

UOT 327

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN VYANA SİSTEMİNİN FORMALAŞMASI VƏ TƏKAMÜLÜ

**İrina KUNİNA***

Məqalə redaksiyaya daxil olmuşdur: 24 yanvar 2023; çapa qəbul edilmişdir: 23 fevral 2023; online-da çap edilmişdir: 30 mart 2023.

Received: 24th of January, 2023; accepted: 23th of February, 2023; published online: 30th of March, 2023.

**Açar sözlər:** *Vyana konqresi, Vyana Sistemi, formalaşma, təkamül, Müqəddəs İttifaq, "pentaxriya","güc balansı"; "Avropa konserti"*

## Giriş

Beynəlxalq münasibətlər tarixində Vyana sisteminə maraq bu günə qədər heç azalmamışdır. H.Kissincer özünün "Diplomatiya" monoqrafiyasında Soyuq müharibədən sonra yaranan müasir beynəlxalq münasibətlərin getdikcə ənənəvi milli maraqlar və dəyişən qüvvələr balansının diplomatik oyunları, ittifaqların yaranması və dağılmasını müəyyən edən XIX əsrin Avropa siyasətinə bənzəyəcəyini proqnozlaşdırmışdı [7, s. 15]. Sual olunur: Vyana sistemi Avropada uzun müddət davamlı sülhü qorumağa imkan verdimi? Vyana sistemi XXI əsrdə dünyada sabitliyi təmin edəcək sazişlər üçün nümunə ola bilərmi? Bu tədqiqatın aktuallığı onunla bağlıdır ki, dünyada maraqlar və qüvvələr balansına, ümumi dəyərlərə əsaslanan, dövlətlərin kollektiv səyləri ilə hər hansı hərbi münaqişələrin qarşısını almağa imkan verən çoxqütblü beynəlxalq münasibətlər sistemi yaratmasına ehtiyac vardır.

Bir çox tədqiqatçılar bəşər tarixində dəyişikliklərin iki xüsusi hadisə – müharibə və ya elmi-texnoloji yeniliklər nəticəsində baş verdiyini iddia edirlər. Bu hadisələr, demək olar ki, həmişə insanların həyatına, dövlətlərin fəaliyyətinə və dövlətlər arasındakı beynəlxalq münasibətlərə təsir göstərmişdir. Belə ki, müharibələr və onların törətdiyi nəticələr beynəlxalq münasibətlərə güclü təsir göstərən amil kimi qəbul edilir. Hər bir müharibədən sonra olduğu kimi, Napoleonu məğlub etdikdən sonra da qalib dövlətlər qlobal sistemi elə təşkil etməyə çalışmışlar ki, bu da əldə etdikləri qazancların qorunub saxlanmasına və mümkün olduğu qədər mövcud status-kvonun qorunmasına və yaradılmış status-kvonu zədələyəcək gələcək müharibələrin, inqilabi, milli-azadlıq hərəkatlarının qarşısının alınmasına töhfə versin. Napoleon müharibələrindən sonra Beynəlxalq münasibətlərin Avropa konserti (*Concert of Europe*), yaxud Vyana sistemi formalaşdı. Beynəlxalq münasibətlərin Vyana sistemi öz adını Napoleon müharibələrinin diplomatik və siyasi nəticələrini yekunlaşdırmaq üçün bütün Avropa ölkələrinin cəmləşdiyi və Yekun Aktı qəbul etdiyi yerdən – paytaxt Vyana şəhərinin adından almışdır. Vyana Konqresi o dövrün beynəlxalq münasibətlərində unikal hadisə idi. 1814-1815-ci illərdə Vyanada baş tutan konqres əvvəlkilərdən ciddi fərqlərə malik idi. Konqres nəinki tarixi proseslərdə

* *siyasi elmlər üzrə fəlsəfə doktoru, dos., ADU*
e-mail: kunina.irina@mail.ru

çox mühüm rol oynamışdır, həm də o, çoxtərəfli diplomatiyanın tətbiqinin və dünya siyasətində beynəlxalq təşkilatların yaradılmasının başlanğıcını qoyan hadisə kimi qiymətləndirilir.

Bu elmi məqalədə tədqiqat işinin məqsədi beynəlxalq münasibətlər sistemində mühüm mərhələni təşkil etmiş Vyana modelinin xüsusiyyətlərini, təkamülünü və dünya düzənində yeri, rolu və əhəmiyyətini təhlil etməkdir.

Məqalə işlənərkən tarixi retrospeksiya metodundan, təsviri və müqayisəli metodlardan, həmçinin struktur-funksional, bioqrafik metoddan, tarixi təsvir metodundan, müqayisəli təhlildən, statistik materialların təhlilindən istifadə edilmişdir.

**Vyana konqresi və onun beynəlxalq-siyasi yekunu**

Vyana sisteminin əsasını 1814-cü ilin mayında Fransa ilə imzalanmış birinci Paris sülhü, Vyana konqresinin Yekun Aktı (iyun 1815), ikinci Paris sülhü (1815), Müqəddəs İttifaqın yaranması haqqında saziş və Axen konqresinin qərarları (sentyabr-noyabr 1818) təşkil edirdi.

Beynəlxalq münasibətlərin yeni sisteminin yaranmasında mühüm yer tutan Konqres 1814-cü ilin sentyabrından 1815-ci ilin iyununa qədər Vyanada keçirildi. Avstriya diplomatı və xarici işlər naziri Metternixin sədrlik etdiyi Konqresdə Osmanlı İmperiyası istisna olmaqla, bütün Avropa dövlətlərinin nümayəndələri iştirak edirdi. Konqresin fəaliyyətində Rusiya imperatoru I Aleksandr, Böyük Britaniyanın səfiri A.Vellinqton, Prussiyanın kansleri K.Hardenberq və Fransanın xarici işlər naziri Talleyran əsas fiqurlar idilər [2, s. 71].

Konqresdə beynəlxalq münasibətlərdə aparıcı rol dörd gücə verildi: Avstriya, Prussiya, Rusiya və Böyük Britaniya. Konqresin nəticələrindən biri İsveçrənin neytrallığının tanınması və xəritədə yeni dövlətlərin – Krakov Respublikası və Polşa Krallığının görünməsi oldu. Sonuncunun mövcudluğu 1815-ci ildən 1831-ci ilə qədər qısamüddətli oldu. Vyana Konqresinin qərarı ilə müasir Belçika ərazisi Hollandiyanın tərkibinə daxil oldu. Danimarka Norveçi İsveçə verdi. Prussiyaya Saksoniya, Polşa torpaqlarının bir hissəsi və Vestfal daxil oldu. Siciliya Krallığında Burbonların hakimiyyəti bərpa edildi [3, s. 63].

Vyana konqresi beynəlxalq münasibətlər sisteminə hansı yeniliklər gətirdi?

Vyana Konqresi legitimlik və siyasi tarazlıq prinsiplərini rəhbər tuturdu. Legitimizm (qanunilik) Fransa inqilabı və Napoleon tərəfindən devrilmiş qanuni sülalələrin hüquqlarının bərpası demək idi. Həm də zadəganların və feodalların keçmiş mövqelərinin ən azı qismən bərpası nəzərdə tutulurdu.

Konqres nəticəsində Vyana beynəlxalq münasibətlərin Vyana sistemi formalaşdı, Avropa monarxiyalarının toxunulmazlığını təmin etmək məqsədi daşıyan Avropa dövlətlərinin Müqəddəs İttifaqı yaradıldı. 1815-1817-ci illərdə Vatikan, İngiltərə və Türkiyədən başqa bütün Avropa ölkələri Müqəddəs İttifaqa qoşulmuşdu.

Vyana Konqresi beynəlxalq münasibətlər tarixində öz dövrünə görə unikal hadisəyə çevrildi. Uzun sürən diplomatik mübarizənin gedişində ənənəvi Avropa monarxiyası ilə Napoleondan miras qalmış yeni cərəyanlar arasında kompromis tapıldı, beynəlxalq münasibətləri tənzimləyən və Avropada yeni sərhədləri təmin edən kollektiv müqavilələr sistemi işlənib hazırlandı. Konqresdə Rusiya Avropa qitəsində üstünlük qazanan və beynəlxalq problemlərin həllində fəal iştirak edən dövlət rolunu oynadı.

Vyana Konqresinin nəticələrinin əhəmiyyəti həm də ondan ibarətdir ki, diplomatik xidmətin üç dərəcəsi, rütbələr haqqında konvensiya qəbul edildi. Diplomatlar səfirlərə, elçilərə və işlər vəkillərinə bölündü, diplomatların qəbulunun vahid proseduru müəyyən edildi, dörd növ konsulluq qurumu formalaşdırıldı [9, s. 23]. Bu gün də onlardan istifadə olunur.

Bu sistem çərçivəsində ilk dəfə olaraq böyük dövlətlər konsepsiyası (o zamanlar ilk növbədə Rusiya, Avstriya, Prussiya, Böyük Britaniya) formalaşdırıldı və nəhayət, çoxşaxəli diplomatiya formalaşdı. Bundan başqa, Yekun Aktda Avropa ölkələri arasında münasibətlərdən bəhs edən xüsusi maddələr də var idi [Ətraflı məlumat üçün bax:6]. Məsələn, beynəlxalq çaylarda (Neys, Reyn və Visla) gəmiçilik rejimi haqqında sazişlər imzalandı, sərbəst naviqasiya prinsipləri müəyyən edildi, Yekun Akta əlavə olaraq qul ticarətini ittiham edən Bəyannamə qəbul edildi [11, s. 253] və s.

Vyana konqresində XIX əsrdə Avropada baş verəcək prosesləri müəyyən edən əsas istiqamətlər, ziddiyyətlər ortaya çıxdı. Vyana Konqresinin nəticələrini Napoleon müharibələri və hətta Böyük Fransa inqilabı hadisələrindən təcrid olunmuş şəkildə nəzərdən keçirmək səhv olardı. Böyük Fransa inqilabı, Napoleon müharibələri və Vyana Konqresi bir-birinin ayrılmaz nəticəsidir və birlikdə Avropanın siyasi və iqtisadi xəritəsini müəyyən edən kompleksi təşkil edir. Buna görə də, Vyana Konqresinin 121 maddədən ibarət olan Yekun Aktı qalib tərəfin maraqlarını tam əks etdirməli idi. Yəni siyasi vəziyyətin Fransa ilə müharibələrin başlamazdan əvvəlki ana qayıtması və İngiltərənin iqtisadi üstünlüyünə nail olmaq. Ancaq gördüyümüz kimi, hər şey o qədər də rəvan olmadı. Fransada monarxiyanın bərpasına baxmayaraq, konstitusiya quruluşunun müəyyən xüsusiyyətləri, qayçılanmış formada da olsa qorunub saxlanıldı, İsveçrə və Polşa Krallığı konstitusiya aldı. Müqəddəs Roma İmperiyasının yerində, Vyana Konqresinin nəticələrinə görə, bir tərəfdən kifayət qədər zəif bir quruluş olan, lakin eyni zamanda subyektlərinə əhəmiyyətli muxtariyyət verən Alman Konfederasiyası yaradıldı [6].

Vyana Konqresi Avropa tarixində ilk dəfə idi ki, qitənin böyük dövlətləri dövlət sərhədlərini və siyasi quruluşunu müəyyən edən uzunmüddətli kollektiv müqavilələr bağladılar. Əhəmiyyətli qeyd-şərtlərlə Vyana Konqresini gələcək Millətlər Liqası və hətta Avropa İttifaqı üçün ilk addım və prototip adlandırmaq olar.

Əminliklə deyə bilərik ki, Vyana Konqresi Avropanın aparıcı dövlətləri arasında sabit münasibətlər paradiqmasının formalaşmasında əsas rol oynadı. Qitədə yeni beynəlxalq münasibətlər sisteminin formalaşdı, hansı ki, təkamül və digər ziddiyyətli məqamları ilə 1914-cü ilə kimi davam etmişdir.

**Vyana sisteminin əsas xüsusiyyətləri və təkamül mərhələləri**

Vyana Konqresindən sonra "Avropa Konserti" – Avropa dövlətləri arasında güc balansı dövrü başladı. Avropa konserti böyük dövlətlərin – Rusiya, Avstriya, Prussiya, Fransa* və Böyük Britaniya ümumi razılığına əsaslanırdı. Onların arasında münasibətlərin hər hansı formada kəskinləşməsi beynəlxalq sistemin dağılmasına səbəb ola bilərdi.

Vyana sistemi aşağıdakı fərqli xüsusiyyətlərə malik idi: 1. Beynəlxalq münasibətlərin Vestfal sistemindən fərqli olaraq Vyana sisteminin elementləri təkcə dövlətlər deyil, həm də dövlətlərin koalisiyaları idi. 2. Avropa konsertinin əsaslarından biri qüvvələr balansının saxlanılması prinsipi idi. Bunun məsuliyyəti böyük dövlətlərin üzərinə düşürdü. Bu məsuliyyət dünyanı təhdid edən problemlərin həlli üçün çoxlu sayda beynəlxalq konfransların keçirilməsi ilə həyata keçirildi. Belə konfranslar sırasında 1856-cı il Paris Konqresi, 1871-ci il London konfransı və 1878-ci il Berlin konfransı böyük əhəmiyyət kəsb edirdi. 3. Dövlətlər beynəlxalq xarakterli qüvvələr balansı çərçivəsində ittifaqların və koalisiyaların ümumi strukturunu pozmadan öz maraqlarını təmin etmək üçün müttəfiqlərin tərkibini dəyişə bilərdilər. 4. Böyük dövlətlərin hegemonluq forması olan Avropa Konserti ilk dəfə olaraq bu dövlətlərin beynəlxalq aləmdə fəaliyyət azadlığını faktiki olaraq

---

* Təzminatın çox hissəsini ödədiyinə görə 1818-ci ildə Müqəddəs İttifaqın Axen konqresi işğal qoşunlarının vaxtından əvvəl Fransadan çıxarılması haqqında qərar qəbul etdi və bu ölkənin böyük dövlət statusu bərpa olundu. Fransanın Dördlər İttifaqının müşavirələrində iştirak etməsi ilə Avropanı pentarxiya (beş dövlət) idarə etməyə başladı.

məhdudlaşdırdı. 5. İlhaq və təzminat beynəlxalq təcrübə formaları olaraq qalsa da, böyük dövlətlər artıq başqa bir böyük dövlətin parçalanmasını və ya ləğvini real məqsəd hesab etmirdilər. 6. Vyana sisteminin mövcudluğu dövründə siyasi tarazlıq anlayışı daha geniş anlayış kəsb edir. Vyana sistemi ilə qurulan güc balansı sayəsində Avropada kiçik hərbi toqquşmalar istisna olmaqla, demək olar ki, müharibələr və silahlı münaqişələr müvəqqəti olaraq dayandırılır. 7. Beynəlxalq münasibətlərin Vyana sistemi Napoleon müharibələrinin nəticəsində bərqərar olmuş yeni status-kvonun – qüvvələr balansının təsdiqinə və milli dövlətlərin sərhədlərinin möhkəmləndirilməsinə yönəlmişdi. Rusiya Finlandiyanı, Bessarabiyanı özünə birləşdirdi və qərb sərhədlərini Polşa hesabına genişləndirərək onu Avstriya və Prussiya arasında bölüşdürdü. 8. Vyana sistemi Avropanın yeni coğrafi xəritəsini, yeni geosiyasi qüvvələr balansını təsbit etdi. Bu sistemin əsasında müstəmləkə imperiyaları daxilində coğrafi məkana nəzarətin imperiya prinsipi dayanırdı. Vyana sistemi dövründə, nəhayət, imperiyalar yarandı: İngiltərə (1876), Almaniya (1871), Fransa (1852). 1877-ci ildə türk sultanı özünü “Osmanlı imperatoru” elan etdi. Rusiya daha əvvəl, 1721-ci ildə imperiya olmuşdu. 9. Sivilizasiyaların və mədəniyyətlərin qlobal təcridinin sona çatmasına baxmayaraq, Vyana sistemi də əvvəlki Vestfal sistemi kimi avropamərkəzçilik xarakteri daşıyırdı. Vestfal sistemi Qərbi və Mərkəzi Avropanı əhatə edərək qlobal xarakter daşımırdı. Sonralar Şərqi Avropanı, Rusiyanı, Aralıq dənizini və Şimali Amerikanı da öz fəaliyyət sahəsinə daxil etdi. Beynəlxalq münasibətlərin Vyana sistemi, faktiki olaraq, Avropa məkanını və müəyyən dərəcədə Avropa Konsertinin aparıcı dövlətlərinin müstəmləkəçilik mübarizəsi apardıqları və ya müstəmləkələri kimi idarə etdikləri əraziləri əhatə edirdi [8, s. 91].

Vyana sistemindən kənarda, tiryək müharibələri və aparıcı Avropa dövlətlərinin tətbiq etdiyi qeyri-bərabər müqavilələr nəticəsində yarımmüstəmləkə vəziyyətinə salınan Çin qalırdı. Vyana sisteminə XIX əsrin ikinci yarısında dünyaya "açılmağa" başlayan Yaponiya da bağlı deyildi. Eyni zamanda, Vyana sistemi dövründə Avropa tarixi tədricən ümumdünya tarixinə çevrilməyə başladı. 10. Vyana konqresində müstəmləkələr rəsmi olaraq müəyyən edilmədi. Birinci Dünya Müharibəsinin (1914-1918) əsas səbəblərindən biri məhz müstəmləkə imperiyalarının yenidən bölüşdürülməsi uğrunda mübarizə olacaqdır. Vyana sisteminin xüsusiyyətləri təkcə status-kvonun saxlanmasında maraqların üst-üstə düşməsində deyil, həm də onun iştirakçılarının sivilizasiya və modernləşmə səviyyələrindəki fərqdən ibarət olmasında idi: Böyük Britaniya və Fransa artıq elmi-texniki tərəqqi prosesinə daxil olmuş, Avstriya və Prussiya isə bu sahədə xeyli geridə qalırdı. O dövrün geosiyasi reallığının özəlliyi ondan ibarət idi ki, Vyana Konqresinin aparıcı dövləti, Avropa “jandarmı” olan Rusiya texnoloji tərəqqidən çox-çox uzaq idi.

Vyana sisteminin inkişafı ilə onun iştirakçıları mahiyyətcə eyni quruluşlu – monarxiya olduğundan uzun müddət homogen olaraq qaldı. Tədqiqatçılar sistemin həddən artıq sabit olduğunu qeyd edirlər. Müharibələrə, inqilablara, beynəlxalq böhranlara baxmayaraq, bu beynəlxalq münasibətlər sistemi faktiki olaraq dəyişməz qalmışdır. Əslində, Vyana Konqresindən Birinci dünya müharibəsi başlayana qədər aparıcı dövlətlərin siyahısı dəyişməz qalmışdır. Aparıcı dövlətlərin hakim elitasının bölüşdüyü prinsiplər beynəlxalq hadisə və proseslərə baxışında oxşarlığı ilə seçilirdi.

Bu isə faktiki olaraq aparıcı dövlətlərin beynəlxalq problemləri kompromislər və koalisiya razılaşmaları yolu ilə həll etmək istəyinə səbəb oldu. Vyana sisteminin mövcudluğu klassik diplomatiyanın inkişaf dövrü oldu. Avropa konserti sistemi başlıca olaraq siyasi sferanı əhatə edirdi və daxili iqtisadi proseslərin xarici siyasətə təsiri isə dolayı xarakter daşıyaraq yalnız ən kritik situasiyalarda özünü göstərirdi.

Diplomatiya sahəsi müəyyən problemlərin həllində müstəsna muxtariyyətə malik idi. Ona görə də diplomatlar heç bir daxili siyasi və ya iqtisadi faktorla məhdudlaşmırdı.

Vyana sisteminin mövcud olduğu dövrdə bütün sivil dövlətlər tərəfindən münaqişələrin sülh yolu ilə həlli, eləcə də hərbi əməliyyatların aparılması, məhbuslarla rəftar və s. üzrə vahid normativ aktlar tərtib edilərək qəbul edilmişdir.

Demək olar ki, Avropanın bütün iri dövlətlərinin (Böyük Britaniya və Rusiyadan başqa) maraqları qitədə cəmləşmişdi. Eyni zamanda dünyada müstəmləkəçilik siyasəti fəal şəkildə gedirdi. Belə ki, dünyanın bölüşdürülməsi XIX əsrin sonu – XX əsrin əvvəllərində başa çatdı.

Bu günə qədər Vyana sisteminin təkamül mərhələləri, eləcə də bu modelin əsas xüsusiyyətləri ilə bağlı qızğın müzakirələr gedir. Vaxtilə Y.Tarle bu sistemin yaxın gələcəkdə praktiki olaraq sıradan çıxacağını və bu sistemin əsas müddəalarına tələb olunmayacağını təxmin edirdi [10, s. 31]. Ümumiyyətlə, sovet tarixşünaslığında Vyana sisteminin kövrəkliyini qeyd etmək və bunun təsdiqi kimi Avropa inqilabları və Şərq məsələsinin kəskinləşməsi nəticəsində baş verən dəyişiklikləri misal göstərmək əsas yer tutur. Vyana sisteminin mənfi qavranılması həm də onun səmərəsiz, zaman və struktur baxımından açıq şəkildə məhdud olduğunu sübut etmək və onun daxilində mərkəzdənqaçma amillərini ön plana çəkmək istəyi ilə nəticələndi. Bəzən "Vyana sistemi" termini əvəzinə "Müqəddəs Alyans" anlayışından istifadə edilirdi ki, bu da açıq şəkildə onun əhatə dairəsini daraldırdı [1, s. 189-196].

Bu dövrün əksər qərb tədqiqatçıları isə konqres iştirakçılarının təsdiq etdiyi prinsiplərin beynəlxalq münasibətlərin daha ahəngdar sisteminin yaradılması istiqamətində irəliyə doğru addım kimi dəyərləndirirlər. Vyana sistemi, onların fikrincə, beynəlxalq münasibətlərin ən sabit sistemidir. 1853-1856-cı illər Krım müharibəsinə qədər Avropada birbaşa toqquşmalar baş vermədi [4, s. 80; 5].

Bu sistemin effektivliyinin qiymətləndirilməsində, onun dövrləşdirilməsində dərin fikir ayrılığı başlıca olaraq Vyana sisteminin mahiyyətini nəyin təşkil etdiyinə fərqli baxışdan irəli gəlir:

1. Avropada geniş vüsət alan inqilabi-azadlıq meyillərinə qarşı mübarizə.
2. Dövlətlərarası münasibətlərdə davamlı və sabit atmosferin saxlanması.

Vyana sistemi ilk tendensiyanın öhdəsindən gələ bilmədi və onun dağılmasına səbəb olan böhran meyllərini doğurdu. XIX əsrin 30-40-cı illərindəki Şərq böhranı və burjua inqilablarını xüsusi olaraq qeyd etmək lazım gəlir. Ancaq Avropa konserti ikinci tendensiyanın öhdəsindən uğurla gəldi və bu yolla sistem çərçivəsində yeni problemlərin həllinə nail olmaq üçün müəyyən resurslar tapıldı.

1870-ci il Fransa-Prussiya müharibəsinin kulminasiya olduğu bir sıra lokal münaqişələrdən sonra Vyana sistemi XX əsrin əvvəllərinə qədər sabitlik qazandı. Nə baş verdi ki, XIX əsrin 70-80-ci illərindən yeni deyil, yalnız yenilənmiş Vyana müdafiə sistemi çıxdı.

XIX əsrin 70-80-ci illərində Beynəlxalq münasibətlərin yeni sistemini ortaya çıxarmayan, Vyana sistemini yalnız yeniləşdirən aşağıdakı hadisələr baş verdi:

1) Vyana konqresində qəbul edilən baza qərarları həmin illərdə keçirilən konqreslər, yaxud böyük dövlətlər de-fakto və ya de-yure ləğv etmədi;

2) Sistemin başlıca xüsusiyyətlərinin onurğa sütununu təşkil edən mühafizəkar qoruyucu prinsiplər çat verdi, lakin qüvvədə qaldı və dövlətlərarası münasibətlərin dinamikasını müəyyən etməkdə davam etdi;

3) Bir sıra sarsıntılardan sonra sistemi elastik tarazlıq vəziyyətində saxlamağa imkan verən qüvvələr tarazlığı bərpa olundu və heç bir kardinal dəyişmə olmadı, çünki əsas problem yaradan alman imperiyasına çevrilən Prussiya ilk vaxtlarda özünün Avropa statusuna yenidən baxılması can atmadı. Bununla belə, Prussiyanın Almaniya İmperiyası, Sardiniyanın isə İtaliya Krallığı ilə əvəzlənməsi Vyana sisteminə təsir etməyə bilməzdi. Buna görə də XIX əsrin 70-ci illərinin Vyana sistemi həmin yüzilliyin 30-cu illərinə adekvat deyildi.

Beynəlxalq münasibətlərin istənilən sistemində iki prinsip müşahidə olunur: 1) davamlılıq və dəyişkənlik. 1848-1849-cu illər burjua inqilablarına qədər Vyana sistemi kifayət qədər dəyişməz bir sistem idi. Baxmayaraq ki, dünya sürətlə dəyişirdi. Bu isə Vyana sisteminin böhranının səbəblərindən biri oldu.

XIX və XX əsrlərin hüdudlarında Vyana sisteminin inkişafındakı mənfi meyillər getdikcə daha çox özünü büruzə verdi. Bu, aşağıdakılarla ifadə edildi:

1) Böyük dövlətlər klubu genişləndi, Böyük Beşlik əvəzinə Böyük Səkkizlik meydana çıxdı: İngiltərə, Fransa, Rusiya, Almaniya, Astriya-Macarıstan, ABŞ, Yaponiya və İtaliya. Yeni güclərin zənginliyi Vyana sisteminin sabitliyinə zərər vurdu;

2) Avropamərkəzçilik prinsipi aşınmağa başladı. Ümumavropa sistemi kimi yaranan Vyana sistemi tam mənada qlobal sistemə çevrilməyə başladı və bütün dünyanı özünə tabe etdi. Bu mərhələdə sistem tərəfindən nəzərdə tutulmayan Avropadan kənarda güc mərkəzləri meydana çıxdı.

3) XIX və XX əsrlərin hüdudlarında dünyanın müstəmləkələrə bölüşdürülməsi başa çatdı ki, bu da manevr imkanlarını, böyük dövlətlər arasında münaqişələr zamanı kompromis axtarışı imkanını kəskin şəkildə məhdudlaşdırdı. Təsadüfi deyil ki, silsiləli lokal müharibələrin baş verməsi böyük dövlətlər arasında mövcud müqavilələrin artıq keçmişə çevrildiyini göstərirdi;

4) a) dünyanın aparıcı ölkələrinin inkişafında baş verən ciddi daxili dəyişikliklər onların dövlət maraqlarının əhəmiyyətli dərəcədə korrektə edilməsinə və mürəkkəbləşməsinə səbəb olmuşdur; b) dövlət maraqlarını ortaq məxrəcə gətirmək mümkün olmadığı kimi, onların təkbaşına həyata keçirilməsinə nail olmaq da qeyri-mümkün oldu; c) nəticədə qütbləşmə sürətlə artmağa başladı ki, bu da iki hərbi-siyasi blokun – Üçlər İttifaqı və Antantanın formalaşmasında öz əksini tapdı. Əgər qüvvələr balansı prinsipi nəzərdə tutursa ki, hərbi-siyasi ittifaqların bağlanması onun möhkəmlənməsi ilə nəticələnəcəkdir, mövcud vəziyyətdə Üçlər İttifaqı və Antanta həmin prinsipi pozmağa yönəldi. Nəhayət, 1914-cü ilə qədər Vyana sisteminin qorunma imkanı tükəndi, beynəlxalq münasibətlər sistemindəki böhranları həll etmək mümkün olmadı və Birinci dünya müharibəsi başladı.

Vyana sistemi 1898-1918-ci illərdə dağıldı. Onu dağıdan münaqişələrin heç biri lokal problemlərdən yaranmasa da, onlar Vyana sisteminin bütün əsas elementlərini sıradan çıxartdılar. Həmin münaqişələri nəzərdən keçirək:

1) 1898-ci ilin payızında İngiltərə ilə Narıncı Respublikası arasında baş vermiş münaqişə – ingilis-bur müharibəsi. Bu müharibədə İngiltərə yandırılmış torpaq taktikasından istifadə etdi: a) Bu zamana qədər Narıncı Respublikanın heç bir Avropa dövləti ilə rəsmi müqaviləsi yox idi; b) Bu müharibənin ağır nəticəsi Britaniya imperiyasının sonunun başlanğıcı oldu; c) suverenliyi olmayan ərazilərlə bağlı mövcud konsepsiyanın yenidən nəzərdən keçirilməsi zərurəti ortaya çıxdı.

2) 1898-ci ildə ABŞ-ın İspaniyaya qarşı təcavüzkar müharibəsi başladı, noyabrın 19-da ultimatum elan etdi və noyabrın 20-də hərbi əməliyyatlar başladı [2, s. 298]:

a) müharibə İspaniyanın Latın Amerikası və Sakit okeandakı müstəmləkələrini qoparmağa yönəlmişdi; b) müharibə ABŞ-ın təcrid olunma dövrünü başa çatdırdı və o, Avropada münaqişəyə girə bilmək imkanı qazandı; c) müharibə Vyana sisteminin aşınması istiqamətində ingilis-bur müharibəsindən az rol oynamadı.

3) Bir neçə il sonra (1904-1905-ci illərdə) Rusiya ilə Yaponiya arasında müharibə baş verdi: a) müharibə göstərdi ki, münaqişələr ənənəvi Avropamərkəzçilik sistemə daxil olmayan dövlətlər qarşısında da baş verə bilər; b) ABŞ sülh müqaviləsinin bağlanmasında vasitəçi kimi çıxış etdi; c) bu Vyana prinsiplərinin dominantlığına meydan oxumaq kimi görünürdü.

4) 1914-cü ildə başlayan Birinci Dünya Müharibəsi: a) Vyana dövlətlərinin özləri tərəfindən baş verdi; b) nəhayət, Avropa siyasətində dominant olan çəkindirmə prinsipləri

ilə bağlı olan ümidlərə son qoydu; c) və müharibənin beynəlxalq-siyasi yekunları çox ağır oldu, Versal-Vaşinqton sisteminin yaranması ilə nəticələndi.

**Nəticə**

Göründüyü kimi, beynəlxalq münasibətlərin Vyana sistemi 1815-ci ildən 1914-cü ilə qədər Avropa tarixində mövcud olmuş beynəlxalq nizamın adı idi. Bu dövrü ifadə etmək üçün "Avropa konserti" sistemi terminindən də istifadə olunur. Bu sistemin məqsədi Napoleon müharibələri başa çatdıqdan sonra Avropada kollektiv təhlükəsizliyi qorumaq idi.

Beləliklə, Vyana sistemi beynəlxalq münasibətlər tarixində öz dövrü üçün unikal fenomenə çevrildi. İlk dəfə olaraq, təkcə qüvvələr balansı əsasında deyil, müntəzəm beynəlxalq konfrans və konqreslərin çağırılması əsasında bütöv bir sistem yaratmaqla qitədə davamlı sülhün qorunmasına cəhd göstərildi. Vyana sistemi ümumi ənənəvi dəyərlərə və prinsiplərə əsaslanırdı.

Qeyd etmək lazımdır ki, Vyana sistemi məzmunu və nəticələri baxımından Vestfal, Versal-Vaşinqton, Yalta-Potsdam kimi, hələ də adı olmayan müasir dünya düzümü kimi fundamental beynəlxalq sistemlərlə müqayisə edilə bilən yeni Avropa nizamı idi.

## ƏDƏBİYYAT


1. Abbasbəyli A.N., Yusifzadə S.Z. Beynəlxalq münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik. Bakı: BDU nəşriyyatı, 2009, 309 s.
2. Baxışov M. Beynəlxalq münasibətlər tarixi (XVII əsrin ikinci yarısından 1918-ci ilədək). Bakı: Sabah, 2014, 420 s.
3. Дегоев В.М. «Долгий мир» в Европе: союз монархов против революций (1815-1853 гг.) // Россия XXI в., Московский государственный институт международных отношений, М., 1993, №1, с. 63-67.
4. Додолев, М.А. Венский конгресс 1815 г. в современной зарубежной историографии // Новая и новейшая история. М.: АСТ, Астрель, 1994, №3, с. 79-88.
5. Мале А. Священный союз, конгрессы // История XIX в., в 8 т., т. 3, М.: Соцэкгиз, 1983, 344 с.
6. Заключительный акт Венского конгресса (1815 г.) (https: // histrf.ru/biblioteka/b/vienskii-konghriess)
7. Киссинджер Г. Дипломатия. Пер. с англ. В.В.Львова. М.: Ладомир, 1997, 848 с.
8. Кудрявцева Е.П. Венская система международных отношений и ее крушение // Новая и новейшая история. М.: Молодая гвардия, 2014, № 4, с. 88-106.
9. Львов А.Л. «Европейский концерт» и его влияние на международные отношения / СПб., 2005, 344 с.
10. Тарле Е.В. Талейран. М.: Высшая школа, 1992, 232 с.
11. Торкунов А.В., Наринский М.М. История международных отношений. в 3 т. т. 1, От Вестфальского мира до окончания Первой мировой войны. М.: Аспект Пресс, 2012, 400 с.
12. 200 лет Венской системе: проект и практика европейской дипломатии. Материалы IX Конвента РАМИ (Москва, 27-28 октября 2015 г.). М.: МГИМО, 2016.

***Резюме***

***Ирина Кунина***

***Становление и эволюция Венской системы международных отношений***

В статье рассматриваются особенности, эволюция и место, роль и значение Венской модели, составившей важный этап в системе международных отношений. Актуальность исследования обосновывается тем, что до сих пор авторы различных научных и политических статей расходились в оценках Венской системы международных отношений: позволяла ли она сохранить прочный мир в Европе; Можно ли использовать как модель договоренностей, обеспечивающих стабильность?

При работе над статьей использовалась следующая методология: метод исторической ретроспективы, описательный и сравнительный методы, а также структурно-функциональный, историко-описательный метод, метод сравнительного анализа, анализ статистических материалов. После наполеоновских войн был сформирован Европейский концерт международных отношений или Венская система. Венская система международных отношений получила свое название места, где собрались все европейские страны и был подписан Заключительный акт подведения (дипломатических и политических) итогов наполеоновских войн – Вена. Венский конгресс был уникальным событием в международных отношениях того времени. Конгресс, проходивший в Вене в 1814-1815 гг., имел серьезные отличия от предыдущих. Съезд не только сыграл очень важную роль в исторических процессах, но и считается событием, положившим начало внедрению многосторонней дипломатии и созданию международных организаций в мировой политике.


***Ключевые слова:*** *Венский конгресс, Венская система, формирование, эволюция, Священный союз, «пентахрия», «соотношение сил»; "Европейский концерт"*


***Summary***

***Irina Kunina***

***Formation and Evolution of the Vienna System of İnternational Relations***

The article examines the characteristics, evolution and place, role and importance of the Vienna model, which constituted an important stage in the system of international relations. The relevance of the research is justified by the fact that until now the authors of various scientific and political articles differed in their assessment of the Vienna system of international relations: did it allow the preservation of lasting peace in Europe; Can  this event be used as a model for arrangements that can provide stability?

Historical retrospection method, descriptive and comparative methods, as well as structural-functional, historical descriptive method, comparative analysis, analysis of statistical materials were used while working on the article.

After the Napoleonic wars, the European concert of international relations, or the Vienna system, was formed. The Vienna system of international relations got its name from the place where all European countries gathered and adopted the Final Act to conclude the diplomatic and political results of the Napoleonic Wars - the capital city of Vienna. The Congress of Vienna was a unique event in the international relations of that time. The congress held in Vienna in 1814-1815 had serious differences from the previous ones. Not only did the Congress play a very important role in historical processes, but it is considered as the event that marked the beginning of the introduction of multilateral diplomacy and the creation of international organizations in world politics.


***Key words:*** *Congress of Vienna, Vienna System, formation, evolution, Holy Alliance, "pentachry", "balance of power"; "European concert"*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.